# Portuqaliya şirkətləri Azərbaycanda bərpaolunan enerji layihələrində iştiraka dəvət edilib

**Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Şimali Makedoniyaya işgüzar səfəri çərçivəsində noyabrın 30-da Portuqaliya Respublikasının xarici işlər naziri Joao Qomis Kravinyo ilə görüşüb.**

Xarici İşlər Nazirliyindən AZƏRTAC-a bildirilib ki, görüşdə tərəflər ikitərəfli və çoxtərəfli platformalarda yeni əməkdaşlıq perspektivləri, regional vəziyyət, habelə Azərbaycan və Ermənistan arasında sülh prosesi ətrafında fikir mübadiləsi aparıblar.

Görüş zamanı tərəflər Azərbaycan-Portuqaliya münasibətlərinə böyük önəm verdiklərini vurğulayıblar. Bu xüsusda siyasi dialoqun, o cümlədən qarşılıqlı səfərlərin vacibliyi qeyd olunub.

Azərbaycan-Portuqaliya iqtisadi əməkdaşlığının yeni sahəsi kimi enerji keçidi və bərpaolunan enerji sahələri, nəqliyyat-kommunikasiya, turizm və s. istiqamətlər üzrə fikir mübadiləsi aparılıb. Nazir Ceyhun Bayramov Portuqaliya şirkətlərini Azərbaycanda bərpaolunan enerji layihələrində iştirak etməyə dəvət edib.

Ceyhun Bayramov görüşdə həmkarını postmünaqişə dövründə hərbi-siyasi təxribatları, o cümlədən Azərbaycanın Qarabağ bölgəsində qeyri-qanuni erməni silahlı qüvvələrinin törətdiyi təhdidlər, Azərbaycanın həyata keçirdiyi antiterror tədbirlərini şərtləndirən səbəblər, tədbirlərdən sonra bölgədəki cari vəziyyət barədə ətraflı məlumatlandırıb.

Bölgədə sülh və təhlükəsizliyin bərqərar edilməsinə mane olan təxribatçı addımların, Azərbaycanın ərazi bütövlüyü və suverenliyinə qarşı çağırışları dəstəkləyən bəyanatlardan çəkinməyin vacibliyi vurğulanıb.

Bu gün Azərbaycanın tam suverenliyini bərpa etməsindən sonra sülh sazişinin imzalanması üçün real şansların olduğunu bildirən nazir Ceyhun Bayramov Ermənistanın bu tarixi imkanları müsbət dəyərləndirəcəyinə ümidvarlığını ifadə edib.

Görüşdə daha sonra qarşılıqlı maraq doğuran digər ikitərəfli, regional və beynəlxalq məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Azərbaycan.- 2023.- 1 dekabr, № 262.- S.3.